Ayna.Az

15.10.2011

# Rahib Məmmədov: "Hazırda neonatalogiya üzrə protokolların tətbiqi çox vacibdir"

## Klinik protokollar tətbiq edilən ölkələrdə ana və uşaq ölümü göstəriciləri azalır

Azərbaycanda neonatalogiya üzrə dörd klinik protokol təsdiq edilmişdir. İlk sənədlər "Yenidoğulmuşların ilkin reanimasiyası" və "Sağlam yenidoğulmuşa qulluq" üzrə klinik protokollar, daha sonra isə "İİV infeksiyasının anadan körpəyə yoluxmasının profilaktikası" və "Yenidoğulmuşlarda prosedurlar" üzrə klinik protokollar olmuşdur. Bu sənədlər neonatalogiya sahəsində vəziyyətin yaxşılığa doğru dəyişməsində əhəmiyyətli rola malikdir.

Klinik protokollar haqqında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) direktor müavini Rahib Məmmədov söhbət açdı. Onun sözlərinə görə, bu protokollar yenidoğulmuşların yaranmış hər bir klinik vəziyyətində vaxtında ardıcıl, keyfiyyətli diaqnostika və müalicə tədbirlərini həyata keçirməklə, neonatal xəstəliklərin, ciddi ağırlaşmaların, neonatal ölümün qarşısını almaq üçündür:

"Bu tədbirlərin tətbiqi və gücləndirilməsi nəticəsində uşaq ölümü göstəricilərinin azaldılmasına nail olmaq mümkündür. Klinik protokolların tətbiqi nəticəsində tibbi yardım səviyyəsinin həmin protokollarla müəyyən edilmiş tələblərə uyğunluğu təmin olunacaq, tibb müəssisələrində müayinə, diaqnostika və müalicə üsulları sübutlu təbabət prinsiplərinə əsaslanacaq".

Onu da qeyd edək ki, dünyada klinik protokollar peşəkar tibb assosiasiyaları, tibb cəmiyyətləri və ya NİCE, SİGN, Cochrane Collaboration kimi xüsusi təşkilatlar tərəfindən hazırlanır. Azərbaycanda klinik protokolların tərtibatı Səhiyyə Nazirliyinin sərəncamı ilə 2007-ci ildən İSİM-ə həvalə olunub. Bu məqsədlə İSİM nəzdində ayrı-ayrı mütəxəssislər cəlb olunmaqla işçi qrup yaradılmışdır. İşçi qrup tərəfindən İlkin Səhiyyə Xidmətlərini (İSX) əhatə edən, statistikaya əsaslanan, daha əhəmiyyətli və aktual olan ilkin öhdəlik kimi, 2008-ci ilədək 32 mövzuda klinik protokolun siyahısı hazırlanıb. Məlumat üçün bildirək ki, hazırda ümumilikdə 50 mövzu üzrə klinik protokol tərtib edilib və Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunub. Klinik protokolların tərtibindən əvvəl İSİM mütəxəssisləri tərəfindən klinik protokolların tərtib qaydaları (metodologiyası) işlənib hazırlanıb və Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilib.

Klinik protokol hər hansı bir xəstəlik, sindrom, klinik vəziyyət zamanı tibbi yardım göstərilməsi üzrə sübutlu təbabət prinsiplərinə əsaslanan tövsiyədir, müntəzəm yenilənən sənəddir. Klinik protokol bu və digər tibbi müdaxilənin effektivliyi və təhlükəsizliyilə bağlı ən etibarlı elmi məlumatlar əsasında tərtib olunur. R.Məmmədov deyir ki, milli protokolları tətbiq etməklə, ölkəmizdə ana və uşaq ölümünün azalmasına təsir etmək olar.

Klinik protokolların tətbiqi ilə bağlı nə deyə bilərsiniz? Sualı cavablandıran R.Məmmədov deyir ki, klinik protokollar ölkə üçün yenilikdir. Protokolların yazılması o demək deyil ki, sənəd bütün müəssisələrdə həmin andan etibarən tətbiq ediləcəkdir:

"Biz birinci mərhələni başa vurmuşuq. İndi isə protokolların tətbiqi - ikinci və çətin mərhələyə qədəm qoymuşuq. Bu protokollarda sübutlu təbabət prinsiplərinə əsaslanan və dünya təcrübəsində sınanılmış tövsiyələr toplanmışdır.

Deməli, həkim özünün bir neçə illik təcrübəsinə deyil, sübutlu təbabət prinsiplərinə və sınanılmış tövsiyələrə istinad edərsə, daha çox uğura imza atmış olar. Təcrübə göstərir ki, klinik protokolların geniş tətbiq edildiyi ölkələrdə ana və uşaq ölümünün göstəriciləri azalır. Ölkəmizdə hələ ki klinik protokollar yazılır, zaman keçdikcə dəyişəcək, yenilənəcək. Lakin hazırda mövcud protokolların tətbiq edilməsi vacibdir".

Qeyd edək ki, İSİM Sumqayıt və Gəncə şəhərlərində, Qax, Şəki, Ağdaş, İsmayıllı və Abşeron rayonlarında klinik protokolların tətbiqi ilə bağlı maarifləndirmə tədbirləri keçirmişdir. Sonradan isə adları çəkilən şəhər və rayonlarda monitorinq və qiymətləndirmə aparılmışdır. Qiymətləndirmənin nəticələrinə görə, protokolla razılaşmayan, onun əhəmiyyətini anlamayan, Sovet üsulu ilə işləyən həkimlərimiz hələ də qalmaqdadır:

"Fəal rayonlarımız və həkimlərimiz də var. Təlim keçirilmiş rayonlarda protokollardan istifadə səviyyəsi yüksəkdir".

İSİM-in Azərbaycanın bütün rayonlarındakı tibb müəssisələrində təlimlər keçirmək fikri inandırıcı görünmür. R. Məmmədov deyir ki, Mərkəzin bütün rayonları əhatə etmək potensialı yoxdur. Lakin Səhiyyə Nazirliyinin tövsiyəsinə əsasən, klinik protokollar kitabça şəklində bütün regionlara göndərilir. Bundan əlavə, www.isim.az saytında bütün protokollar pdf formatında yerləşdirilmişdir. İstənilən şəxs saytdan protokolları əldə edə bilər.

Klinik protokolların Azərbaycan Tibb Universitetində tədrisinə gəldikdə, C.Məmmədov bildirdi ki, klinik protokolların həm əsas, həm də diplomdan sonrakı ali və orta tibb təhsili prosesində istifadə olunması bu prosesi tibb işçiləri qarşısında qoyulan müasir tələblərə uyğunlaşdırmağa, həmçinin bu sənədlərin vaxtında və ardıcıl şəkildə tətbiq edilməsinə imkan yaradır. Lakin klinik protokollarda qeyd edilən diaqnostika və müalicə üsulları praktik həkimlərin istifadəsi üçün nəzərdə tutulmuşdur. Bütün dünyada bu sənəd həkimlərin stolüstü kitabıdır:

"Azərbaycan Tibb Universitetində protokolların tədrisi tanışlıq xarakterli ola bilər. Məsələn, daxili xəstəliklər tədris edilərkən tələbələrin bu mövzu ilə bağlı mövcud, sübutlu təbabət prinsiplərinə əsaslanan klinik protokollarla tanış olmaları daha məqsədəuyğun olardı". Müsahibə əsnasında onu da öyrəndik ki, klinik protokollar özündə etibarlı, effektiv və təhlükəsizliyi sübut olunmuş məlumatları əks etdirir. Bu sənədlərdə həkimin hər hansı bir klinik vəziyyətdə hansı ardıcıllıqla hərəkət etməsi, hansı diaqnostika və müalicə üsullarından istifadə etməsi göstərilir. Klinik protokollarda sübutların etibarlılıq dərəcəsi və elmi tədqiqatların tipləri cədvəli, həmçinin tövsiyələrin etibarlılıq səviyyəsini ölçmək üçün şkala da mövcuddur. Həkimlər bu alətlərdən istifadə etməklə tövsiyələrin etibarlılıq səviyyəsini müəyyənləşdirə bilərlər.

R.Məmmədov əlavə etdi ki, klinik protokollar həkimlərin fəaliyyətinə nəzarət etmək, qiymətləndirmək və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması baxımından önəmlidir.

*Aynurə Əhmədova*